## Qarabağ gündəliyi



**Vətən müharibəsi. Danışıldıqca necə böyük qəhrəmanlıqların ortaya çıxdığı, torpaq həsrətinə, məğlubiyyət acısına, insan və ərazi itkisindən qaynaqlanan ruh düşkünlüyünə 44 gündə son qoyan bir savaş. Üstündən keçən hər gün, ay onun barəsində deyiləcək sözü azaltmır, əksinə hər ötən dövr 44 gündə necə zəngin bir tarix yazdığımızı bir daha gözlər önünə gətirir. 30 illik ağrını zaman aşımına məruz qalmadan ürəyində daşıyan millət həsrətinin, kədərinin, bütün acılarının üstündən zəfərlə xətt çəkdi. Bu şanlı tarixi yazanlar arasında müəllimlər, təhsil işçiləri də var. Biləsuvar Peşə Liseyinin coğrafiya müəllimi Nicat Nuriyev, psixoloqu İqbal Qəhrəmanov və istehsalat təlim ustası Elsevər Salayev də bir an belə düşünmədən qəhrəmanlıq tarixinin bir parçası olmağa tələsdi. Üçü də vətəninin çağırışına qoşuldu, savaşdı və qaliblər cərgəsində geri döndülər. Nicat Nuriyev və İqbal Qəhrəmanov qazi, Elsevər Salayev isə veteran kimi. Onlardan biri, Liseyin psixoloqu İqbal Qəhrəmanov "Azərbaycan müəllimi"-nin növbəti qazi qonağıdır.**



# Qalib ölkənin qəhrəman müəllimi

## *İqbal Qəhrəmanov:* "Düşmənlə üzbəüz gəldiyimiz, aradakı məsafənin 3-4 metrədək azaldığı vaxtlar olurdu"

### Hər döyüşdən sonra...

İqbal müəllim Biləsuvarda doğulub. 1976-cı ilin aprelində. Bu ayın 12-də 45 yaşı tamam olur.

Bakı Dövlət Universitetinin Sosial elmlər və Psixologiya fakültəsinin məzunudur. Artıq 25 ildir Peşə liseyinin psixoloqudur, psixologiyadan dərs deyib.

Hərbi xidməti quru qoşunlarında keçib. Universitetdə təhsil alarkən Hərbi kafedra olduğundan zabit kimi hələ tələbəykən yetişməyə başlayıb. Buradakı təhsili ona piyadaların bölük komandirinin siyasi məsələlər üzrə müavini vəzifəsini tutmağa imkan verib.

Zabit olaraq Vətən müharibəsində də kənarda qalmayıb. Ən ön sıralarda yerini alıb.Komandir müavini olaraq müharibənin ilk günlərindən - sentyabrın 29-dan cəbhədə olub: "Sentyabrın 28-də çağırış alan kimi Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etdim. Ağcabədidə təlimlərə qatıldım. Təlimlərdən dərhal sonra cəbhəyə yollandıq. Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı istiqamətində gedən döyüşlərdə iştirak elədim. Oktyabrın 24-də Qubadlı uğrunda döyüşdə yaralandım və məcburən döyüşü tərk etməli oldum".

Keçdiyi döyüş yolu o qədər uzun olmasa da, müharibə haqqında təəssürat yaratmağa imkan verir: "Müharibə və onun dəhşətlərini unutmaq asan deyil. Baxmayaraq ki, ən öndə gedən biz deyildik. Bizdən əvvəl kəşfiyyatçı dəstə gedir, biz onları izləyirdik. Ona görə də döyüşlərimizin hamısı itki ilə nəticələnmirdi. Tez-tez düşmənlə üzbə-üz gəldiyimiz, aradakı məsafənin 3-4 metrədək azaldığı vaxtlar olurdu. Məsafənin azalmağından qorxmurduq. Artıq artilleriya zərbələri və ətrafımıza səpələnən qəlpələr də qorxutmurdu bizi. Elə alışmışdıq ki, partlayış səsləri, ağır döyüş səhnələri gözümüzdə adiləşmişdi".

Bunun dəhşətli döyüş səhnələrinə alışmaq, yoxsa mövcud reallıqla barışmaqmı olduğunu anlamaq isə çətin deyil. İşğal altında illərdir inildəyən ərazilərimizi azad etməyin başqa yolu olmadığından İqbal müəllim kimi yüzlərlə, minlərlə gənc qanlı savaş reallığı ilə barışmış görünsə də, bunun elə də asan olmadığını bilirdilər. İqbal müəllim etiraf edir: "Müharibə çox çətindi. O qədər dəhşətlidir ki, hər döyüşdən sonra sağ-salamat qaldığımıza təəccüb edirdim".

### Mərmi yarası

Nəhayət, döyüşlərdən biri onu təəccübləndirməyib. Oktyabrın 24-də iştirak etdiyi həmin döyüş onun Vətən müharibəsində düşmənə güllə atdığı son döyüş oldu. O da bu müharibənin bir çox qazisi kimi, artilleriya atəşi nəticəsində yaralanıb. Huşunu itirən döyüşçünü döyüş yoldaşları ordan uzaqlaşdırıb: "İrəliyə getmək tapşırığı almışdıq. Əmri yerinə yetirməliydik. Hər birimiz nəyin bahasına olursa-olsun, tapşırığı icra etmək istəyir, bu istəklə irəli atılmağa tələsirdik.Qubadlı istiqamətində gedən döyüşlərdən birində yaralanmışam. Artilleriya partlayışı oldu və mərmi məni də tutdu. Sadəcə yaralandığımı anladım. Sonra huşumu itirdim. Məni döyüş bölgəsindən döyüşçü yoldaşlarım uzaqlaşdırıb".

### İqbalı qəhrəmanlıq olan müəllim

Müharibənin yaraları sarınır. Savaşda bir yumruğa dönüb düşmənə tarixi cavabını verən millət artıq müharibənin yaralarını sarımağa başlayıb.

İqbal müəllimin də yaraları var. Füzuli Diaqnostika Mərkəzində, Şirvan Mərkəzi xəstəxanasında ağrılı günlər keçirib. Düzdür, indi də ağrıları davam edir. Ancaq artıq qalib ölkənin qəhrəman müəllimi olmağın haqlı qürurunu da yaşayır.

İndi də qəhrəmandır. Ölkə Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Vətən müharibəsi başa çatdı. Bu savaşda da bəxtinə şəhidlik yazılanlar, qədəri qazilik olanlar çox oldu.

İqbal - bəxtigətirən deməkdir. Bəxti gətirib bu savaşda aldığı yaralara baxmayaraq salamat qalmağı bacaran qəhrəman müəllimlərdən sadəcə biridir İqbal Qəhrəmanov da. Sadəcə təkcə təhsil sisteminin deyil, millətinin qürur mənbəyi olan minlərlə qəhrəmandan biri.

**Ruhiyyə DAŞSALAHLI**